**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən 60 bank günü qüvvədə olmalıdır).*
- *Azərbayjan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar (arayışların əslləri və tarixləri tender elanından sonra olmalıdır);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru «Dövlət satınalmaları haqqında» Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **5 sentyabr 2017-ci il** tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **13 sentyabr 2017-ci il il saat 17:00-dək** “Azərbaycan Dövlət İqtisad Universitetinin, Bakı şəhəri, İstiqlaliyyət küç. 6 ünvanında yerləşən əsas binasına yazılı formada təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **14 sentyabr 2017-ci il, saat 11:00-də** “Azərbaycan Dövlət İqtisad Universitetinin”, Bakı şəhəri, İstiqlaliyyət küç. 6 ünvanında yerləşən əsas binasının, iclas zalında açılacaqdır.

Zərflərin acılmasında iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***TENDER KOMİSSİYASI***